ABŞERONUN EKOLOJİ BƏRPA EDİLMƏSİ PROQRAMI

ÇİRKLƏNMİŞ ƏRAZİLƏRİN BƏRPASI LAYİHƏSİ

Yenidən Məskunlaşma Siyasətinin Çərçivə Sənədi

# 1. Giriş

**Milli/ sektor üzrə kontekst – nə üçün məhz çirklənmiş ərazilərin təmizlənməsi**

Təklif olunan "Çirklənmiş Ərazilərin Bərpası" layihəsi Ətraf Mühit üzrə Dövlət Proqramının icrasına yardım etməsi üçün Azərbaycan Hökumətinin Dünya Bankına etdiyi müraciətinə cavab olaraq, Dünya Bankının göstərdiyi dəstək çərçivəsində icra ediləcəkdir. Layihə ***Ətraf Mühit üzrə Dövlət Proqramında (ƏMDP)*** müəyyən edilmiş və maraqlı hökumət agentliyi ilə razılaşdırılmış prioritet tədbirlər arasından seçilmiş çox saylı investisiya yardımlarından ibarət olub, ƏMDP-nın operasiyalaşdırılması sahəsində praktiki həll yollarının araşdırılmasına yönəlmişdir.

Fövqəladə Hallar Nazirliyinin (FHN) təklif etdiyi "Çirklənmiş Ərazilərin Təmizlənməsi" layihəsi ***Abşeronun Ekoloji Bərpa edilməsi Proqramının (AEBP)*** bir hissəsi olub, iki sabiq yod zavodunun yerləşdiyi yerlərin, Buzovna və Maştağa qəsəbələri arasında Bakı beynəlxalq hava limanının şimalında yerləşən neftin istismar olunduğu 1000 hektarlıq ərazidən (neftin hasil olduğu əsas tarixi yataqlardan biridir) ibarətdir.

**Layihənin təsviri**

Təklif edilən layihənin beş komponenti vardır.

Komponent A - İki sabiq Yod Zavodlarının təmizlənməsi və bərpası
Bu komponent çərçivəsində Suraxanı və Ramanı da yerləşən sabiq iki yod istehsalı zavodlarında təmizləmə işləri üzrə təxirəsalmaz tədbirlər işlənib hazırlanacaqdır.

Komponent B - NORM-ların (təbii yolla meydana gələn radioaktiv materiallar) saxlanılması üçün təyin olunmuş anbar məntəqəsinin inşası
Azərbaycanda hazırda NORM-ların təhlükəsiz şəkildə saxlanması və ya başqa yolla kənar edilməsi mexanizmi yoxdur. A Komponenti çərçivəsində təmizlənəcək əvvəlki iki yodlu sahədən əldə edilən radioaktiv tullantıların və digər təmizlənən sahələrdən, o cümlədən keçmiş neft istehsalı sahələrindən əldə edilən NORM-ların saxlanılması üçün təyin olunmuş məntəqənin hazırlanması və inşası bu komponent vasitəsilə maliyyələşdiriləcəkdir.

Komponent C - NORM ilə Çirklənmiş Sahələrin Ölkə üzrə Xəritələşdirilməsi və Bərpa Edilməsi Proqramı
Bu komponent ölkə miqyasında NORM ilə çirklənmiş sahələrin xəritəsinin hazırlanması, çirklənmə səviyyələrinin, prioritetlərin, bərpa və ya lokallaşdırılma tədbirlərinin müəyyən edilməsi üçün milli səviyyədə hərtərəfli tədqiqat proqramının hazırlanması üçün FHN-nə imkan verir.

Komponent D - 1,000 ha hektarlıq Sahə üzrə Bərpa Proqramı
Bu komponent çərçivəsində Buzovna və Maştağa qəsəbələri arasında 350 neft quyusunun yerləşdiyi neftlə çirklənmiş təqribən 1000 hektarlıq ərazinin təmizlənməsi ilə neftlə çirklənən ərazinin təmizlənməsi və onun istifadəyə qaytarılması üçün metodlar hazırlanaraq, sınaqdan keçiriləcəkdir. Ehtimal edilir ki, torpaqlar ilk olaraq yaşayış yeri kimi istifadə edilmişdir.

Komponent E - Texniki Yardım və Layihənin İdarə edilməsi
Bu komponent Layihənin idarə edilməsi və icrasının monitorinqi üçün maliyyə yardımı və həmçinin, institusional inkişaf, strategiyanın işlənib hazırlanması və planlaşdırma üçün texniki yardımı təmin edəcək.

## 2. Təsirin miqyası

**Layihənin təsirinə məruz qalan insanlar**

Layihə çərçivəsində iki keçmiş yod zavodunun bərpası həyata keçiriləcəkdir. Keçmiş yod zavodlarının birinin yerləşdiyi yerdə - Suraxanıda 59 nəfər (13 ailə) hazırda radioaktiv ağac kömür qalağının yerləşdiyi yerin yaxınlığında tərk edilmiş zavodların binasında yaşayır. 59 nəfərin hər biri məcburi köçkündür. Layihənin icrası zamanı işlər başlanmazdan əvvəl məcburi köçkün ailələrinin ən tez mümkün zamanda köçürülməsi tələb olunacaqdır. Məcburi köçkünlərin köçürülməsindən başqa, göstəriləcək təsirin miqyası yerdə aparılacaq təfərrüatlı araşdırmalara, layihə icrası zamanı görüləcək işlərin müfəssəl texniki dizaynına əsasən müəyyən ediləcəkdir.

Layihədə Abşeron Yarımadasının təmizlənməsi üçün Bankın göstərəcəyi növbəti yardım zamanı təmizlənə biləcək, Buzovna və Maştağa qəsəbələri arasında yerləşən, neftlə çirklənmiş təqribən 1000 hektarlıq iri ərazidə konkret yerlər müəyyən ediləcəkdir. “1000 ha” ərazinin təmizlənməsi baxımından bu insanların və biznes müəssisələrinin bəzilərinin köçürülməsi tələb oluna bilər, çirklənmiş ərazinin iriliyini nəzərə aldıqda isə təmizləmə tədbirləri erkən mərhələlərdə köçürülmənin tələb olunmayacağı bir sıra mərhələlərdə və ərazilərdə aparılacaqdır.

Suraxanı ərazisində və “1.000 ha” ərazidə təsirin dəqiq növü və əhatə dairəsi Layihə icra olunmazdan əvvəl bilinməyəcəyi üçün torpaqların alınması və fiziki köçürülmə, eləcə də layihənin icrası nəticəsində qazancın itirilməsi ilə bağlı məsələlər zamanı tətbiq ediləcək siyasət və prosedurların müəyyən olunduğu Yenidən Məskunlaşma Siyasəti üzrə Çərçivə Sənədi hazırlanmışdır.

**Gözlənilən təsirin təfsilatı**

Layihənin yerli əhaliyə göstərəcəyi potensial təsirə aşağıdakılar daxildir:

- Suraxanıda yerləşən keçmiş yod zavodunda məcburi köçkün və qaçqınların[1] yenidən məskunlaşması;

[1] Azərbaycan qanunvericiliyində məcburi köçkün və qaçqın anlayışı hər zaman beynəlxalq təcrübəyə uyğun gəlmir, ancaq hazırkı YMSÇS-da qaçqınlar fiziki münaqişə nəticəsində öz evlərini tərk etmiş, ancaq aşağıda verilən qanunlar çərçivəsində məcburi köçkün sayılmayan insanlardır.

- Yerdə aparılan ilkin araşdırma ilə təsdiq olunarsa, "1000 ha" çirklənmiş ərazidə yaşayan bəzi ailələrin yerinin dəyişməsi;
- Yerdə aparılan ilkin araşdırma ilə təsdiq olunarsa, "1000 ha" çirklənmiş ərazidə yerləşən tikililərin (evlər və kommersiya strukturları) dağıdılması;
- Köçürülmədən sonra Suraxanı ərazisi sakinlərinin və (yerdə aparılan ilkin araşdırma ilə təsdiq olunarsa) "1000 ha" ərazidə kommersiya müəssisələrinin sahiblərinin öz qazancını itirməsi.

Mənfi sosial təsirləri azaltmaq üçün FHN Suraxanı və "1000 ha" neftlə çirklənmiş ərazilərdən ailələrin köçürülməsi üçün siyasət və prosedurların müəyyən olunduğu Yenidən Məskunlaşma Siyasətinin Çərçivə Sənədini hazırlamışdır.

## 3. Qanunvericilik və institusional çərçivə

**Milli Qanunvericilik Çərçivəsi**
Torpaq, torpağın alınması və digər mülkiyyətin itirilməsi üçün kompensasiya edilməsi ilə əlaqədar məsələlərə dair istiqamətləndirən Azərbaycanın cari qanunvericiliyinə aşağıdakılar daxildir:

• Torpaq Məcəlləsi, 25 iyun 1999;
• Mülki Məcəllə, 1 dekabr 1998;
• Nazirlər Kabinetinin 42 saylı, 15 mart 2000 il tarixli Qərarı;
• Nazirlər Kabinetinin 110 saylı, iyun 1999 tarixli Qərarı.

Qaçqın və məcburi köçkünlərlə əlaqədar məsələlərə dair Azərbaycanın cari qanunvericiliyinə aşağıdakılar daxildir:

- "Qaçqın və məcburi köçkünlərin (ölkədə sıxışdırılıb çıxarılmış şəxslər) vəziyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, 21 may 1999
- "Məcburi köçkünlərin və onlara bərabər sayılan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 21 may 1999
- Prezident Fərmanı #187, "Qaçqın və Məcburi Emiqrantların Məsələləri üzrə Azərbaycan Respublikasının Dövlət Komitəsi haqqında", 1 fevral 2005
- Prezident Fərmanı #298, "Qaçqınların və məcburi emiqrantların həyat səviyyəsinin yaxşılaşması və məşğulluğunun artması haqqında Dövlət Proqramı"na edilmiş əlaqələr haqqında", 1 iyul 2004

"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının 21 may 1999 tarixli Qanununda ümumi prinsiplər verilir, məcburi köçkünlər və qaçqınların hüquqi status və hüquqları müəyyən edilir, bu insanlara dövlət tərəfindən göstərilən yardımın əsas prinsip və mexanizminin təfsilatı verilir.

"Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının 21 may 1999 il tarixli Qanununun 2-ci maddəsində müəyyən edilir ki, Ermənistanla münaqişə nəticəsində Azərbaycan ərazisindən kənarda daimi yaşayış yerini tərk edib Azərbaycana gələn qaçqınlara da məcburi köçkünlərə verilən eyni hüquq və hüquqi status verilir. Həmin qanunda məcburi köçkün və qaçqınlar

üçün sığınacağın verilməsi, məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi, o cümlədən Dövlətin əlaqədar cavabdehlikləri ilə bağlı tədbirlər müəyyən edilir.

"Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi haqqında" 187 saylı Prezident Fərmanında məcburi köçkün və qaçqınların yerləşdirilməsi, repatriasiyası və sosial müdafiəsi, o cümlədən onların ev şəraitinin yaxşılaşdırılması üzrə dövlət siyasətlərinin tətbiq edilməsi istiqamətində cavabdeh mərkəzi icraedici qurum kimi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rolu və funksiyaları müəyyən edilir.

"Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramına" əlavələrin edilməsi haqqında" 298 saylı 31 dekabr 2007-ci il tarixli Prezident Fərmanında 1 iyul 2004-cü ildə təsdiq edilmiş Dövlət Proqramına ediləcək düzəlişlər müəyyən edilir. Düzəliş edilmiş Prezident Fərmanında Bakı, Abşeron və digər rayonlarda müvəqqəti olaraq məskunlaşmış məcburi köçkün və qaçqınların yerləşdirilməsi üçün yaşayış binalarının tikintisi və yeni qəsəbələrin salınması üçün Plan tərtib edilmişdir. Planda müəyyən edilir ki, tikiləcək yeni mənzillər elektrik enerjisi, su təchizatı, təhsil, mədəni, səhiyyə kimi zəruri infrastrukturla və digər zəruri sosial xidmətlərlə təmin ediləcəkdir.

**Azərbaycanda qüvvədə olan qanunvericiliklə Dünya Bankının OP 4.12 arasında olan boşluqlar**

Dünya Bankının OP 4.12-nin əsas prinsiplərinin çoxu Azərbaycanın cari qanunvericiliyi ilə tam və ya qismən əhatə olunur. Buraya aşağıdakılar daxildir:

- Torpağın məcburən alındığı yerlərdə kompensasiya ödənişinə dair tələbat (Torpaq Məcəlləsi, maddə 70.5);
- Tam bazar dəyəri əsasında və ya eyni keyfiyyətdə, ölçü və dəyərdə olan digər torpaq sahəsi və ya tikilinin verilməsi vasitəsilə kompensasiya ödəmək tələbatı (Torpaq Məcəlləsi, maddə 8 və 70.5);
- Mümkün yerlərdə kənd təsərrüfatı torpaqlarına və meşələrə təsirin göstərilməsinin qarşısını almaq tələbatı (Nazirlər Kabinetinin 42 saylı Qərarı, bölmə I, maddə 2);
- İstehsalda itkiləri (müvəqqəti və ya daimi), istehsaledici kapitala və məhsullara zərəri kompensasiya etmək tələbatı (Nazirlər Kabinetinin 42 saylı Qərarı, Bölmə I və II) və
- Mübahisələrin həlli və şikayət vermək hüququnun təmin edilməsi üçün məhkəməyəqədər vasitələrin təmin olunması.

OP 4.12 çərçivəsində tələb olunan müddəaların Azərbaycan qanunvericiliyi ilə tələb olunan müddəalardan kənara çıxdığı altı geniş sahə vardır. Bunlar aşağıdakı sahələrdir:

- <u>Yenidən məskunlaşmanın planlaşdırılması və prosedura dair tələblər</u>

Azərbaycan qanunvericiliyi ilə rəsmi Yenidən Məskunlaşma üzrə Tədbirlər Planının (YMTP) hazırlanmasına və ya yenidən məskunlaşma üzrə tədbirlər planına daxil olan komponent çərçivəsində hər hansı tədbirlərin görülməsinə dair hazırda tələb yoxdur (məsələn, "siyahıya alma", sosial-iqtisadi tədqiqat, layihənin təsir etdiyi adamlarla məsləhətləşmə, monitorinq və ya hesabatvermə). Qanunvericilikdə "könülsüz yenidən

məskunlaşma"ya dair konkret istinadlar yoxdur. Azərbaycan qanunvericiliyində məsləhətləşmələrin aparılmasına dair də aydın tələbat yoxdur.

- Azərbaycanda kompensasiya ödənişi üçün münasiblik

Azərbaycan qanunvericiliyi ilə kompensasiya ediləcək adamların kateqoriyası OP 4.12 çərçivəsində müəyyən edilən kateqoriyalardan daha məhduddur. Qanunvericilik çərçivəsində kompensasiya üçün münasib olan şəxslər və qurumlar qeydiyyatdan keçmiş mülkiyyət hüquqlarına malik olanlar, məsələn, qeydiyyatdan keçmiş torpaq sahibkarları, icarədarlar, istifadəçilər və qeydiyyatdan keçmiş üçüncü tərəfin hüquqları olan şəxslər və ya öz hüquqlarını qeydiyyat etmək üçün qanunla hüquq qazanmış, ancaq müəyyən səbəblərə görə qeydiyyatdan keçməmiş şəxslərdir. OP 4.12 çərçivəsində kompensasiya edilmək hüququ qazanacaq təsirə məruz qalan insanların bir çox kateqoriyası potensial olaraq burada kənarlaşdırılır.

- Azərbaycanda torpaqlardan qeyri-qanuni istifadəyə dair müddəalar

Azərbaycan qanunvericiliyi ilə hüquqi titulu olmayan şəxslərin təmin olunmadığına baxmayaraq, tətbiq olunan təcrübə çox zaman fərqli olur. Diqqətəlayiq məlumat göstərir ki, işi ilə məşğul olmaq üçün hüquqi titulu olmayan insanlara işinin dəyərində kompensasiya ödənilir, ancaq onlar üçün gəlirin bərpa edilməsi tədbirləri görülmür, onlara fiziki məskunlaşma üçün yardım göstərilmir. Tətbiq olunan bu təcrübə Dünya bankının PÖ 4.12-nə uyğundur, ancaq qanunvericilikdə müəyyən olunmadığı üçün bu tədbir ixtiyari olaraq fərdi şəkildə tətbiq olunur, sistematik olaraq yoxlanmır.

- Kompensasiya və Yenidən Məskunlaşmaya Göstərilən Yardımın Dərəcəsi

Azərbaycanda cari qanunvericilik çərçivəsində torpaq, tikili, bitki, mənfəət və layihə üçün torpağın alınması ilə əlaqədar digər zərərlər üçün kompensasiya ödənilir. Ancaq daşınma xərcləri və ya qazancın əvvəlki səviyyəyə qaytarılması üçün bərpa yardımı Azərbaycan qanunvericiliyi ilə hökumətin cavabdehliyi kimi qəbul edilmir, bu kimi cavabdehliyin götürülməsi heç bir hökumət qurumuna həvalə olunmur.

- Mülkiyyətin idarə edilməsi

Dünya Bankının ehtiyat tədbirləri siyasəti çərçivəsində itirilmiş mülkiyyət üçün kompensasiya mülkiyyətin tam əvəzolunması dəyərinə əsaslanaraq hesablanacaqdır, başqa sözlə kompensasiya öz qazanclarını yenidən məskunlaşmazdan əvvəlki səviyyəyə qaytarmaları üçün Layihənin Təsir etdiyi İnsanları üçün tələb olunan məbləğə bərabər olmalıdır. Azərbaycan qanunvericiliyi ilə kompensasiya itirilmiş mülkiyyətin bazar dəyərinə bərabərdir.

- Gəlirin bərpa edilməsi

OP 4.12 çərçivəsində layihənin icrası nəticəsində itirilmiş gəlirlər kompensasiya edilməlidir. Azərbaycan qanunvericiliyində isə bu kimi gəlirin itkisi üçün kompensasiya ödənişi nəzərdə tutulmur.

## 4. Yenidən məskunlaşma və torpaqların alınması prinsipləri

Layihənin cari və sonrakı mərhələlərinin icrası, eləcə də Suraxanıdakı keçmiş yod zavodunun yerinin və "1000 ha" ərazi kimi tanınan digər çirklənmiş sahələrin

təmizlənməsi nəticəsində fiziki məskunlaşma və torpaqların alınası, eləcə də qazancın itirilməsi hallarının azaldılması aşağıdakı prinsiplərə uyğun aparılacaqdır:

- Labüd olan hallar istisna olmaqla, FHN "1000 ha" ərazidə özəl şəxslərin yaşamadığı və ya kommersiya fəaliyyəti aparmadığı yerlərdə təmizləmə işlərini başlayacaqdır.
- Layihənin təsirinə məruz qalan insanlara layihənin mahiyyəti və gözlənilən təsiri haqda kifayət qədər məlumat veriləcəkdir.
- Yenidən məskunlaşmalı olan layihənin təsirinə məruz qalan şəxslərlə əvvəlcədən məsləhət ediləcək, yeni yaşayış yerinə dair qərarın qəbul edilməsində onlar iştirak edəcəklər. Torpaqların alınması və fiziki yenidən məskunlaşma prosesi haqda onlara ətraflı məlumat verəcəkdir ki, burada da onların hüquqları və icra prosedurları izah ediləcəkdir.
- Fiziki işlərin aparılması nəticəsində çıxışın və ya gəlirin itirilməsi halları minimuma endiriləcək, lazımi kompensasiya ödəniləcəkdir.
- Layihənin təsirinə məruz qalan şəxsləri, eləcə də onların təsirə məruz qalacaq mülkiyyəti və iqtisadi fəaliyyətini müəyyən etmək üçün təmizləmə tədbirlərinin hazırlığı üzrə erkən mərhələlərdə siyahıya alma aparılacaqdır.
- Hazırlanacaq hər YMP üzrə tamamlanma tarixi müəyyən ediləcək, kompensasiya almağa hüququ çatan şəxsləri müəyyən etmək üçün ictimaiyyətə və layihənin təsirinə məruz qalan münasib şəxslərə tamamlanma tarixi aydın elan ediləcəkdir.
- Təmizlənəcək ərazi, təsirin miqyası, eləcə də layihənin təsirə məruz qalan şəxslər dəqiq müəyyən edilən kimi FHN sektor üzrə hazırlanacaq YKP-nın format və təfərrüatlarını Bankla müzakirə edib, razılaşdıracaqdır.
- Layihənin təsirinə məruz qalan yenidən məskunlaşacaq bütün əhali bazar qiyməti düşmədən itirilmiş mülkiyyətin dəyərinə bərabər kompensasiya alacaq və ya bazar qiyməti düşmədən itirilmiş sığınacaq yeri və digər daşınmaz əmlaka bərabər olan alternativ sığınacaq yeri və mülkiyyətlə təmin ediləcəkdir. İtirilmiş torpaq üçün kompensasiya təyin olunduqda normativ qiymətdən istifadə edilməyəcəkdir.
- Layihənin təsirinin və layihə təsirinin hər kateqoriyası üzrə kompensasiya paketlərinin təfsilatının verildiyi YMP hazırlanacaqdır.
- Yaşayış/mülkiyyətə sahibliyin qanuniliyi kompensasiya almaq üçün münasibliyə təsir etməyəcəkdir, ancaq layihənin təsirinə məruz qalan və təsir göstərilən torpağa hüququ çatmayan adamlara torpaq itkisi üçün kompensasiya ödənməyəcəkdir.
- YMP(lar) hazırlanan kimi layihənin təsir göstərdiyi şəxslərlə məsləhətləşmələr aparılacaqdır.
- YMP(lar)ının icrası zamanı FHN sahədə hamıya məlum olan və tam iş günü çalışan "vasitəçi" təyin edəcəkdir ki, o da layihənin təsir göstərdiyi əhali ilə əlaqə saxlamaq və onlara kifayət qədər məlumat vermək üçün cavabdeh olacaqdır.

## 5. İcra

Fövqəladə Hallar Nazirliyi (FHN) Layihənin İcraçı Qurumudur. Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi (QMKİDK) milli qanunvericiliyə əsasən qaçqın və məcburi köçkünlərin yenidən məskunlaşması və yerləşdirilməsi məsələləri sahəsində cavabdehdir. Buna görə də Suraxanı ərazisində yaşayan məcburi köçkünlərin köçürülməsi QMKİDK tərəfindən həyata keçiriləcəkdir.

Baş Nazir Müavini Dünya Bankına 8 fevral 2008-ci il tarixli məktub göndərmişdir ki, bu məktubda da QMKİDK-nin məcburi köçkünləri yenidən məskunlaşdıracağı bildirilir. Layihə İdarəetmə Qrupu tərəfindən cəlb ediləcək Sosial və Kommunikasiya üzrə Koordinator FHN-ni təmsil təmsil edəcək, Yenidən Məskunlaşma Planının (YMP) hazırlanmasında QMKİDK-ya yardım edəcəkdir.

“1000 ha” ərazidə miqyası və həcmi layihənin icrası zamanı müəyyən ediləcək potensial köçürülmə üçün yalnız FHN cavabdeh olacaqdır. Sosial və Kommunikasiya məsələləri üzrə Koordinatorun rəhbərliyi altında LİQ hazırkı YMP-nı YMSÇS-də verilən siyasət və müddəalara əsasən hazırlayacaqdır. Məcburi köçkünlərin “1000 ha” ərazidən köçürülməsinə ehtiyacın olduğu təsdiq edilərsə, Suraxanı ərazisində olduğu kimi YMP Sosial və Kommunikasiya məsələləri üzrə Koordinatorla birgə QMKİDK tərəfindən hazırlanacaqdır.

QMKİDK son illərdə məcburi köçkünlərin yerləşdirilməsi və yenidən məskunlaşdırılması sahəsində zəngin təcrübə qazanmışdır. QMKİDK məcburi köçkünlərin çadır düşərgələrindən, dəmir yolu vaqonlarından və “Fin Düşərgələrindən” kommunal xidmətlər və digər əsas infrastruktur xidmətləri ilə təchiz olunmuş evlərə köçürülməsi üçün proqramlar icra etmişdir. Aşağıda verilənlər Böyük Bakı ərazisində və onun ətrafında məcburi köçkünlərin yerləşdirilməsi üzrə cari proqramı səciyyələndirir:

- Ərazidə torpaq sahəsi kiçik olduğundan məcburi köçkünlərin yerləşdirilməsi üçün yeni mənzillərin və evlərin tikintisi Bakı şəhəri torpaq ehtiyatlarından QMKİDK-ya torpaq verildikdən sonra mərhələlərlə həyata keçiriləcəkdir.
- QMKİDK-də Yenidən Məskunlaşma Şöbəsi məcburi köçkünlərin yenidən məskunlaşması üçün cavabdeh olub, yenidən məskunlaşma planlarını hazırlayır və məcburi köçkünlərin yenidən məskunlaşacaq hədəf qruplarını seçir.
- Yenidən məskunlaşma planı yekunlaşmazdan xeyli əvvəl və planlaşdırılmış yenidən məskunlaşma elan edilməzdən öncə yenidən məskunlaşmaya hüququ olan məcburi köçkünləri müəyyən etmək üçün nəzarət planı hazırlanır. QMKİDK yenidən məskunlaşacaq məcburi köçkünlərin seçilmiş hədəf qruplarını ziyarət edir, ailə üzvlərinin sayı, məcburi köçkün statusu, qeydiyyat yeri və s. kimi əsas məlumatların toplanması üçün siyahıya alma aparır.
- Seçmələri üçün məcburi köçkünlərə alternativ məskunlaşma yerlərinin siyahısı təqdim olunur, yenidən məskunlaşma prosesində şikayətlərin həll edilməsi mexanizmi qurulur. Əgər məcburi köçkünlər birinci təklifi qəbul etmək istəməzsə, adətən QMKİDK məskunlaşma üçün alternativ yerlər təklif edir. Məsələn, uzaq məsafədə yerləşən yeni qəsəbədəki evdən imtina edən məcburi köçkünlərə iki variant təklif edilmişdir: (i) 3 aydan sonra şəhər ətrafında yeni fərdi evlərə daşınmaq; və ya (ii) 12 aydan sonra şəhərdə yeni tikilmiş mənzilə daşınmaq. Bu variantlardan birini seçmiş məcburi köçkünlər seçilmiş yaşayış yeri hazır olanadək öz xərcləri hesabına mənzil icarəyə götürmüşdür, seçilmiş evlərin tikintisi tamamlanan kimi onların məskunlaşacağına zəmanət verilmişdir.
- Məcburi köçkünlər rəsmən digər rayonlarda qeydiyyatdan keçsələr belə QMKİDK onların Böyük Bakı regionunda yaşamalarına icazə verir. Böyük Bakı ərazisində məcburi köçkünlərin əksəriyyəti rəsmi qeydiyyat yerindən miqrasiya etmişdir. Əgər onlar yenidən məskunlaşma üçün seçilsələr, ərazidə qala bilmələri üçün onlara öz

rəsmi qeydiyyat yerlərini rəsmən Bakı ilə əvəz etmək imkanı verilir. Bakıda yaşayan məcburi köçkünlər şəhərdən uzaqda yerləşən yeni qəsəbələrdən birində artıq yerləşdirilibsə, onlara ya təmin olunan evə qayıtmaları, ya da Böyük Bakı ərazisində yeni evə yerləşmək üçün həmin evi təhvil vermələri təklif edilir.

- Real məskunlaşmayadək yenidən məskunlaşma planı haqda ilkin xəbərdarlıq verildikdən sonra QMKİDK-nin əməkdaşları benefisiar məcburi köçkünləri müntəzəm olaraq ziyarət etmiş, onlara əldə edilən tərəqqi haqda məlumat vermişlər. Məcburi köçkünlər QMKİDK-da Yenidən Məskunlaşma Şöbəsinin birbaşa telefon xəttlərinə çıxışla təmin edilmişdir ki, onların sualları ünvanlana bilsin.
- Yenidən məskunlaşan məcburi köçkünlərin daşınma xərcləri QMKİDK tərəfindən ödənilir.
- QMKİDK məcburi köçkünlərin yenidən məskunlaşması üzrə daha geniş planın bir hissəsi kimi Layihə çərçivəsində yenidən məskunlaşdırılan istənilən məcburi köçkünü şəhər administrasiyasının təmin etdiyi torpaqlarda tikilmiş mənzil binalarının birində məskunlaşdıra bilər. Alternativ olaraq, məcburi köçkünlərə şəhərin kənarlarında fərdi evlər təklif edilə bilər.

Beləliklə, QMKİDK Yenidən Məskunlaşma Planını (YMP) OP 4.12 siyasəti çərçivəsində tələb olunan tərzdə hazırlamadığı hallar istisna olmaqla,  hesab edilir ki, QMKİDK tərəfindən icra olunan yenidən məskunlaşma proqramları ilə Bankın OP 4.12 siyasəti ilə əlaqədar yuxarıda qeyd edilmiş boşluqların əksəriyyəti aradan qaldırılır. Buna görə də İİN-də LİQ-in Sosial və Kommunikasiya üzrə Koordinatoru QMKİDK ilə birgə YMP hazırlayıb, məcburi köçkünlər köçürülməzdən öncə onu Banka təqdim edəcəkdir. Layihə çərçivəsində yenidən məskunlaşma planı köçürüləcək hər bir məcburi köçkünlə müzakirə ediləcək, təklif edilən plana dair onların ciddi və qanuni narahatlıqları olduğu təqdirdə, məcburi köçkünlərə alternativ yollar təklif ediləcəkdir.

## 6. Razılaşmalar

Bu siyasi çərçivənin icrasını aşağıdakı prinsiplər idarə edir:

- FHN təmin edəcəkdir ki, Yenidən Məskunlaşdırma Planları (YMP) hazırkı YMSÇS və layihənin cari və sonrakı mərhələləri, eləcə də Suraxanıda yod zavodu ərazisinin və "1000 ha" ərazinin təmizlənməsi zamanı icra ediləcək hər hansı təmizlik tədbirləri üzrə OP 4.12-nin aşağıdakı müddəalarına riayət etməklə hazırlansın.
- Məcburi köçkünlərin köçürülməsi QMKİDK tərəfindən həyata keçiriləcəkdir. FHN QMKİDK və Bank arasındakı fəaliyyəti əlaqələndirəcək, YMP-nı təsdiq olunması üçün təqdim edib, onun icrası istiqamətində əldə olunan tərəqqi haqda hesabat verəcəkdir.
- Bank Yenidən Məskunlaşma Tədbirlər Planını təsdiq etməzdən əvvəl FHN köçürülməyə səbəb olacaq heç bir iş görməyəcəkdir.
- Məcburi köçkünlər və qaçqınlar yerləşdirildikdə QMKİDK-nin təklif etdiyi yenidən məskunlaşma planı onlarla müzakirə ediləcək, ilkin təklifi qəbul etmək istəmədikləri halda, alternativ planların hazırlanması zamanı onların üstünlük verdiyi məsələlər nəzərə alınacaqdır.
- Keçmişdə layihənin təsirinə məruz qalan insanların maliyyələşdirdiyi xilasedici materiallar onlara pulsuz təmin ediləcək, nəqliyyat xərcləri ödəniləcək, FHN

qaçqınların məskunlaşması üçün, QMKİDK isə məcburi köçkünlərin köçürülməsi ilə bağlı yol xərclərini ödəyəcəkdir. Ancaq Suraxanı ərazisində yüksək dərəcədə çirklənməyə məruz qalmış xilasedici materiallar məcburi köçkünlərə verilməyəcəkdir.

- FHN torpaqların alınmasını və/və ya yenidən məskunlaşmanı tələb edən təmizləmə tədbirlərinin hər seqmentinin siyahısını hazırlayacaq, hazırkı YMSÇS və təsdiq edilmiş YMP(lər) əsasında icra planını hazırlayacaqdır.
- Bank müvafiq Yenidən Məskunlaşma Planlarını (YMP) nəzərdən keçirəcək, zəruri olarsa, dəyişikliklərin edilməsini tövsiyə edəcəkdir.
- FHN YMP-larının hazırlanmasını yoxlaması, icranın vəziyyəti barədə dövri olaraq Banka məlumat verməsi üçün monitorinq sahəsində potensial quracaqdır.
- Müntəzəm missiyalar zamanı Bank YMP-larının hazırlanması, icrası və monitorinqinin müxtəlif aspektlərində iştirak edəcəkdir.
- FHN YMP-larının nəticələrinə və icra planlarına təsir göstərə biləcək hər hansı mühüm problemlər və ya vəziyyət yarandıqda dərhal Bankı bu barədə xəbərdar edəcəkdir.

## 7. Hüquqların Matrisa Cədvəli

| **İtkilərin növü** | **Layihənin təsirinə məruz qalan insanların kateqoriyası** | **Hüquqlar** | **Qeydlər** |
|---|---|---|---|
| Torpağın itirilməsi | Qanuni torpaq sahibləri | Əvəzləmə xərclərinin nağd ödənişi və ya yaxınlıqda alternativ torpağın verilməsi | Labüd olarsa, torpaqların alınması; yaşayış və ya kommersiya məqsədləri üçün istifadə edilməyən və ya alınmayan ərazilər prioritetləşdiriləcəkdir |
| | Qeyri-qanuni torpaq sahibləri | Dövlət torpaq ehtiyatlarından alternativ torpağın icarəyə verilməsi | Labüd olarsa, torpaqların alınması; yaşayış və ya kommersiya məqsədləri üçün istifadə edilməyən və ya alınmayan ərazilər prioritetləşdiriləcəkdir |
| Torpağın təmizlənməsi üçün tikililərin dağıdılması | Yaşayış evləri | Bazar qiyməti düşmədən əvəzləmə xərci ilə nağd pul ödənişi və ya alternativ strukturun təmin edilməsi; sahibkarlara xilasedici materiallar pulsuz verilir, çirklənmiş ərazilərdən istisna olmaqla nəqliyyat xərcləri ödənilir. | Mövcud tikililərin olmadığı ərazilər prioritetləşdirləcəkdir; QMKİDK məcburi köçkünlər və qaçqınları əsas infrastruktur və kommunal xidmətlərlə təmin olunmuş alternativ yaşayış yerləri ilə təmin edəcəkdir. |
| | Kommersiya strukturları | Bazar qiyməti düşmədən əvəzləmə xərci ilə nağd pul ödənişi və ya alternativ strukturun təmin edilməsi; sahibkarlara xilasedici materiallar pulsuz verilir, çirklənmiş ərazilərdən istisna olmaqla nəqliyyat xərcləri ödənilir. | Mövcud tikililərin olmadığı ərazilər prioritetləşdirləcəkdir; |
| Yolların genişləndirilməsi üçün yolkənarı tikililərin zərər çəkməsi | Yaşayış evləri | Bazar qiyməti düşmədən əvəzləmə xərci ilə nağd pul ödənişi | Ciddi zərər çəkmə halında (>30%) kompensasiya bütün tikili üçün ödəniləcəkdir |
| | Kommersiya strukturları | Bazar qiyməti düşmədən əvəzləmə xərci ilə nağd pul ödənişi | Ciddi zərər çəkmə halında (>30%) kompensasiya bütün tikili üçün ödəniləcəkdir |
| Qazanc itkisi | Biznes sahibləri | Bir illik gəlirə bərabər olan nağd pul ödənişi | Biznes fəaliyyətinin daimi bağlanması halında |
| | Bağlanacaq müəssisələrin işçiləri | Altı aylıq məvacibə bərabər olan nağd pul ödənişi | Biznes fəaliyyətinin daimi bağlanması halında |
| Müvəqqəti qazanc itkisi | Tikinti işlərinə görə alıcılarla əlaqəsi kəsilmiş biznes sahibləri | Müvəqqəti çıxışın qurulması | Tədbirlər ƏMİP-na daxil ediləcəkdir |
| Kommunal xətlərin zərər çəkməsi | Kommunal şirkətlər | Dizaynın hazırlanması mərhələsində kommunal şirkətlərlə məsləhətləşmə | Xidmətlərin müvəqqəti dayandırılması |
| | | Xidmətlərin dayandırılması haqda istifadəçilərə xəbərdarlığın verilməsi | |

Əlavə

Yenidən Məskunlaşma Tədbirlər Planının Mündəricatı

1. Baza planınlaşdırması tədqiqatları
2. Yenidən məskunlaşma halının yol verilməməsi və ya bu halların azaldılması
3. Layihənin təsir göstərdiyi şəxslər
4. Əhalinin zəif qrupları
5. Dinləmələr və iştirak
6. Tikinti işlərinin əlaqələndirilməsi
7. Tərəfdaş qurumlarla müqavilə tədbirləri
8. İcra tədbirləri
9. Monitorinq və hesabatvermə
10. Şikayətlərin baxılması prosedurları
11. Büdcə və maliyyələşdirmə
12. Əlavə xərclər və çeviklik
13. Ödəmə üçün qəbul etmə və öhdəlik
14. Hüquqların Matrisa Cədvəli